BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2010

# ADAMLARI GİROV GÖTÜRMƏNİN SUBYEKTİV ƏLAMƏTLƏRİ HAQQINDA

**P.R.HÜSEYNOV**
***Bakı Dövlət Universiteti***
***polad55@rambler.ru***

*Məqalədə adamları girov götürmənin subyektiv əlamətləri tədqiq edilir. Göstərilir ki, adamları girov götürmə subyektiv cəhətdən təqsirin birbaşa qəsd növüdür və xüsusi məqsədlə səciyyələnir. Əməl ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda təqsirin qarışıq forması mövcud olur: qəsd və ehtiyatsızlıq. Adamları girov götürmə və ya saxlama hərəkətlərinə münasibətdə birbaşa qəsd və xüsusi məqsəd, zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrin baş verməsinə münasibətdə isə ehtiyatsızlıq səciyyəvidir. Adamları girov götürmə cinayətinin subyekti yalnız cinayət törədərkən on dörd yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.*

*Məqalədə tədqiq edilən məsələ barədə ümumiləşmə aparılır və müvafiq nəticələr çıxarılır.*

Cinayət qanununda və cinayət hüquq nəzəriyyəsində cinayətin subyektiv cəhətini və subyektini səciyyələndirən cinayətin subyektiv əlamətləri nəzərdə tutulur. Cinayətin subyektiv cəhəti və subyekti cinayət tərkibinin zəruri elementləridir. Onlardan hər hansı birinin, habelə onları səciyyələndirən məcburi əlamətlərdən birinin olmaması konkret cinayət tərkibinin mövcud olmadığını və beləliklə, cinayət məsuliyyəti üçün əsas olmadığını göstərir.

F.Y.Səməndərov cinayətin subyektiv cəhəti ilə bağlı yazır: «Cinayətin subyektiv cəhəti cinayətin bilavasitə törədilməsi ilə əlaqədar şəxsin psixi fəaliyyətidir. Cinayətin subyektiv cəhəti ictimai təhlükəli əməli etməyə qətiyyət yaradan, dərk edilən tələbatı, əməlin obyektiv əlamətlərinin şüurda inikasını (yaxud inikas imkanını) və bunlara münasibəti ifadə edir» (4, 190).

Cinayətin daxili aləmini səciyyələndirən subyektiv cəhət zahirən obyektiv cəhətdə, yəni cinayətkarın konkret hərəkətində və ya hərəkətsizliyində təzahür edir. Cinayətin subyektiv cəhətinin mövcud olmaması, yuxarıda qeyd etdiyimiz kimi, cinayət tərkibinin də mövcudluğunu istisna edir. Onun dəqiq müəyyən olunması isə konkret əməlin düzgün tövsifini və bunun nəticəsi olaraq təqsirkarın qanuni və əsaslandırılmış məsuliyyətini təmin edir. Cinayətin subyektiv cəhəti şəxsin bütövlükdə törədilən cinayətə və onun ayrı-ayrı obyektiv xarakterli əlamətlərinə (ictimai təhlükəli əmələ, ictimai təhlükəli nəticələrə, ictimai təhlükəli əməl ilə baş vermiş ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqəyə, cinayətin edilmə üsuluna, törədildiyi zaman, məkan və şəraitə, törədilməsində istifadə edilən alət və vasitələrə) münasibətindən ibarət olan, onun cinayətkar davranışının daxili psixoloji səciyyəsini bildirən qanunla müəyyən olunmuş əlamətlərin məcmusudur.

Cinayət hüquq nəzəriyyəsində cinayətin subyektiv cəhətini səciyyələndirən əlamətlər kimi təqsir, motiv və məqsəd fərqləndirilir.

İ.Ağayev göstərir ki, təqsir subyektiv cəhətin məzmununun əsası, bir növ onun oxudur. Şəxsin hərəkətlərində cinayət tərkibinin olması haqqında ancaq onun bu hərəkətləri təqsirli şəkildə törətdiyi müəyyən edildiyi halda danışmaq olar. Təqsirin olmadığı halda, hətta, əgər bu cür hərəkətlərin nəticəsində ictimai zərərli dəyişikliklər baş vermiş olarsa belə, şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz. Təqsirin olmaması cinayətin subyektiv cəhətinin və ümumiyyətlə, cinayət tərkibinin özünün olmamasını göstərir (1, 216). Qeyd edək ki, bu müddəa Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 7-ci maddəsində (təqsirə görə məsuliyyət prinsipi) qanunvericiliklə təsbit edilmişdir. Həmin maddəyə görə "yalnız törətdiyi ictimai-təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalana bilər", habelə "şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz".

İ.Ağayev təqsirlə bağlı daha sonra yazır: "Təqsir dedikdə, cinayət hüququnda şəxsin özünün törətdiyi və cinayət qanunu ilə nəzərdə tutulmuş əmələ və onun nəticələrinə olan psixi münasibəti nəzərdə tutulur. Təqsir şəxsiyyətin və cəmiyyətin maraqlarına qarşı mənfi münasibəti ifadə edən və cinayət törətmiş şəxsin cinayət məsuliyyətini tələb edən halların məcmusudur" (1, 216). Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 24-cü maddəsində təqsirin iki forması – qəsd və ehtiyatsızlıq formaları fərqləndirilir. Cinayət Məcəlləsinin 25-ci maddəsinə uyğun olaraq qəsd birbaşa qəsdə və dolayı qəsdə, 26-cı maddəsinə uyğun olaraq isə ehtiyatsızlıq cinayətkarcasına özünəgüvənməyə və cinayətkarcasına etinazıslığa bölünür.

Yuxarıda qeyd etdiyimiz kimi, motiv və məqsəd cinayətin subyektiv cəhətinin əlamətlərindəndir. F.Y.Səməndərov cinayətin motivinə ictimai təhlükəli əməli törətməyə qətiyyət yaradan, konkret əməldə maddiləşən dərk olunmuş maraq kimi anlayış verir (4, 223). İ.Q.Filanovski motivi belə müəyyən edir: «Cinayətin motivi – ictimai təhlükəli əməli törətməyə sövq edən dərk olunmuş və əşyalaşmış maraqdır» (11, 35). A.Q.Kərimlinin cinayətin motivinə verdiyi anlayış onun mahiyyətini daha dəqiq müəyyən edir. Müəllif yazır: «Cinayətin motivi – müəyyən tələbatların ödənilməsinə yönələn və bu və ya digər səviyyədə dərk olunan niyyətin cinayətkar davranış aktı (hərəkət və ya hərəkətsizlik) formasında həyata keçməsinə sövq edən qüvvədir.

Bu anlayış bir sıra suallara birmənalı cavab verir:

1) bütün cinayətlərin motivləri müəyyən tələbatların mövcudluğu sayəsində oyanır;

2) cinayət motivlərinin cinayətkar nəticəyə doğru hərəkəti cinayətin niyyəti (məqsədi) ilə müşayiət olunur

3) cinayətin motivi hiss impulslarının ifadəsidir, yəni psixi qüvvədir» (3, 33).

Cinayətin motivi onun məqsədi ilə sıx bağlıdır, ancaq eyni zamanda onlar eyni anlayışlar deyildir. Məqsəd törədiləcək cinayətin xarici aləmdə yaradacağı arzu olunan dəyişiklik barəsində şəxsin təsəvvürüdür (4, 225). Motiv və məqsəd qanunverici tərəfindən bu və ya digər cinayət tərkibinə daxil edildikdə, onlar konkret cinayət tərkibinin subyektiv cəhətinin məcburi əlamətlərinə çevrilir və beləliklə, onların olub-olmaması törədilmiş əməlin tövsifinə təsir göstərir.

İstənilən cinayətdə olduğu kimi, adamları girov götürmənin subyektiv cəhəti cinayət tərkibinin ən çətin müəyyən edilən elementidir. Bu, ən əvvəl onunla izah edilir ki, insanın daxili aləminə, onun fikirlərinə, niyyətinə, arzu və hisslərinə nüfuz etməyin cinayətin obyektiv əlamətlərini müəyyən etməkdən çox-çox çətindir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.1-ci maddəsində təsbit edilmiş cinayətin subyektiv cəhətinin məcburi əlamətləri kimi təqsir və xüsusi məqsəd də çıxış edir. Cinayət Məcəlləsinin 24.2-ci maddəsinə görə "ehtiyatsızlıqdan törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda cinayət sayılır". Buradan və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.1-ci maddəsinin adamları girov götürmənin ehtiyatsızlıqdan törədilə bilməsi barədə göstərişinin olmamasından belə nəticə çıxara bilərik ki, qeyd olunan cinayət yalnız birbaşa qəsdlə törədilə bilər. Bu, adamları girov götürmə və ya saxlamanın xüsusi məqsədinin olması barədə qanunvericinin göstərişi ilə də təsdiq edilir.

Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsinin 215.1 və 215.2-ci maddələrində, eləcə də 215.3-cü maddəsində nəzərdə tutulan mütəşəkkil dəstə tərəfindən adamları girov götürmə subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Qeyd edək ki, bu müddəa Azərbaycan Respublikasının 1960-cı il Cinayət Məcəlləsinin adamları girov götürməyə görə məsuliyyət müəyyən edən 120-1-ci maddəsinin birinci hissəsi üçün də doğrudur. Təqsirkar CM-in nəzərdən keçirdiyimiz maddəsində göstərilən hərəkətləri törətdiyini, onların ictimai təhlükəli olduğunu dərk edir və qeyd olunan ictimai təhlükəli nəticələrin baş verməsini arzu edir. Cinayətin subyekti CM-in 215.3-cü maddəsində nəzərdə tutulmuş əməli (zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olan adamları girov götürməni) təqsirin qarışıq forması ilə törədir. Belə ki, CM-in 215.1-ci maddəsində göstərilən hərəkətlər üçün birbaşa qəsd, CM-in 215.3-cü maddəsində qeyd olunan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrin baş verməsinə münasibət ehtiyatsızlıqla səciyyələnir (2, 546). Bu fikri eynilə Azərbaycan Respublikasının 1960-cı il Cinayət Məcəlləsinin 120-1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş cinayət üçün də ifadə etmək mümkündür.

Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsinin 25.2-ci maddəsinə görə "şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur". Buradan aydın olur ki, qəsdin birbaşa forması iki əqli və bir iradi məqamla xarakterizə olunur. Birinci əqli məqama şəxsin öz əməlinin (hərəkətinin və ya hərəkətsizliyinin) ictimai təhlükəli olmasını dərk etməsi, ikinci əqli məqama bu əməlin ictimai təhlükəli nəticələrini qabaqcadan görməsi daxildir, iradi məqam isə şəxsin belə əməli törətməyi və göstərilən nəticələrin baş verməsini arzu etməsi ilə xarakterizə edilir. Bunlar onu göstərir ki, şəxsin qanunla qorunan marağa vuracağı zərər onun şüurunda əks olunur.

Yuxarıda qeyd etdiyimiz kimi, adamları girov götürmə subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Burada birinci əqli məqam adamları girov götürmənin ictimai təhlükəli olmasını şəxsin dərk etməsindən, ikinci əqli məqam adamları girov götürmənin ictimai təhlükəli nəticələrinin şəxsin qabaqcadan görməsindən ibarətdir. Beləliklə, adamları girov götürmənin əsas tərkibinin əqli məqamları bir yerdə təqsirkarın şəxsin azadlığının məhdudlaşdırılmasını, onun davranışının qanunsuz

olaraq nəzarət altına alınmasını, saxlanılan halda öz yerini dəyişmək imkanından qanunsuz olaraq məhrum edilməsini dərk etməkdə ifadə olunur.

Adamları girov götürmənin əsas tərkibinin iradi məqamını təqsirkarın şəxsi girov götürmə və ya saxlama əməlini törətməyi arzu etməsi təşkil edir. Arzu müəyyən məqsədə çatmaq üçün səfərbər edilmiş iradədir (9, 140). Bu zaman nəzərə almaq lazımdır ki, iradi məqam əqli məqamla üzvi şəkildə bağlı olub ondan asılıdır. Belə ki, əgər təqsirkar şəxsi girov götürdüyünü və ya girov qismində saxladığını dərk edirsə, onda o, bunu törətməyi arzu edir. Burada əməlin cinayət olmasını aradan qaldıran hallar (şəxs cinayət məsuliyyəti yaşına çatmadığı və ya ictimai təhlükəli əməl törədilən vaxt anlaqsız olduğu hallar) istisna təşkil edir. Beləliklə, Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsinin 215.1-ci maddəsində təsbit edilmiş adamları girov götürmənin iradi məqamı təqsirkarın şəxsin azadlığının məhdudlaşdırılmasını, onun davranışının qanunsuz olaraq nəzarət altına alınmasını, saxlanılan halda öz yerini dəyişmək imkanından qanunsuz olaraq məhrum edilməsini arzu etməsidir.

Qeyd edək ki, cinayətkar niyyətin yaranma anına görə qəsd iki yerə bölünür: 1) əvvəlcədən düşünülmüş qəsd; 2) qəflətən yaranan qəsd. Adamları girov götürmə həm əvvəlcədən düşünülmüş qəsdlə, həm də qəflətən yaranan qəsdlə törədilə bilər. Əvvəlcədən düşünülmüş qəsddə cinayət törətmək niyyətinin yaranması ilə onun reallaşdırılması arasında müəyyən, bəzən isə kifayət qədər böyük zaman dövrü olur. Qəsdin bu növü cinayətin törənməsindən əvvəl, şəxsin həmin cinayəti törətməyi möhkəm qərara aldığı, onun törədilməsi planını, mümkün maneələrin aradan qaldırılmasının üsul və vasitələrini əvvəlcədən düşündüyü halda yaranır (1, 256).

Əvvəlcədən düşünülmüş qəsdlə törədilən adamları girov götürmə əksər hallarda qabaqcadan diqqətlə planlaşdırılması, cinayətin törədilməsi üçün müvafiq vasitə və alətlərin seçilməsi, iştirakçılar arasında vəzifələrin bölüşdürülməsi, girov qismində konkret şəxslərin (və ya şəxslərin müəyyən dairəsinin, məsələn, uşaqların) müəyyənləşdirilməsi, cinayətin törədilməsi üçün əlverişli şəraitin yaradılması və gözlənilməsi ilə səciyyələnir.

Qeyd edək ki, qabaqcadan düşünülmüş qəsdlə adamları girov götürmə adətən aşağıdakı məqsədlərlə həyata keçirilir:

a) azadlıqdan məhrumetmə yerlərindən qaçma;
b) xaricə getmək;
c) girovu azad etmə müqabilində ödənc alma;
ç) siyasi tələblər irəli sürmə;
d) hakim, müstəntiq, prokuror, ekspert və b.-larının qərarına təsir etmək;
e) millətlərarası münaqişələr zamanı əsirləri dəyişdirmək və s.

Qəflətən yaranan qəsd onunla səciyyələnir ki, cinayət əməli törətmək niyyəti qəflətən yaranır və az bir zamandan sonra dərhal həyata keçirilir. Qəsdin bu növü ilə törədilən adamları girov götürmə, bir qayda olaraq, təqsirkarın başqa cinayəti (məsələn, quldurluğu) törətməsindən əvvəl baş verir, adamları girov götürmənin özü isə cinayətkarın hüquq mühafizə orqanları əməkdaşları tərəfindən tutulmaması üçün təminat rolunu oynayır. Bu zaman cinayətkarın bilavasitə yaxınlığında olan "təsadüfi" adamlar girov qismində çıxış edir, təqsirkarın tələbi isə özü üçün təhlükəsiz olan yerə getməyə şərait yaradılması, bunun üçün ona nəqliyyat vasitəsi verilməsi və təqib edilməkdən imtina edilməsi ilə bağlı olur. Bir qayda olaraq, əvvəlcədən düşünülmüş qəsdlə törədilən adamları girov götürmə əməlin və

təqsirkarın şəxsiyyətinin ictimai təhlükəliliyini yüksəldir.

Əvvəlcədən düşünülmüş və qəflətən yaranan qəsd haqqında yuxarıda qeyd olunan müddəalar yalnız kriminoloji əhəmiyyət kəsb edir. Əvvəlcədən düşünülmüş qəsd yalnız Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.3-cü maddəsində tövsif edilən girov götürmənin mütəşəkkil dəstə tərəfindən törədildiyi hal üçün cinayət-hüquqi əhəmiyyətə malikdir. Qəflətən yaranan qəsd bu cinayət tərkibi üçün əhəmiyyətli deyil, çünki o, cinayətin tövsifinə təsir göstərmir.

Cinayət hüquq nəzəriyyəsində xüsusi qəsd də fərqləndirilir. Xüsusi qəsd qanunverici tərəfindən cinayət tərkibinə konstruktiv element və ya tövsifedici hal kimi daxil edilmiş təqsirkarın şüurunda xüsusi məqsədin olması ilə səciyyələnir (6, 76). Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215-ci maddəsinin dispozisiyasında qanunverici adamları girov götürmənin xüsusi məqsədini təsbit etdiyindən, 215-ci maddə ilə tövsif edilən bütün ictimai təhlükəli əməllər xüsusi qəsdlə törədilmiş olacaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi, xüsusi məqsəd adamları girov götürmənin subyektiv cəhətinin məcburi əlamətidir. Qanunverici Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.1-ci maddəsini qurarkən törədilmiş əməlin məhz adamları girov götürmə kimi tövsif edilməsi üçün zəruri olan halları göstərir. Təqsirkar baxılan cinayəti törədərkən "dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək" məqsədi daşıyır. Dövlətə, təşkilata və ya ayrı-ayrı vətəndaşlara qarşı irəli sürülən tələblər və onların irəli sürülmə forması əməlin tövsifinə təsir göstərmir. Burada yalnız təqsirkar baxılan cinayəti tamah niyyəti ilə törədərək qanunsuz varlanmağa çalışdığı hal istisnalıq təşkil edir.

Zənnimizcə, adamları girov götürmənin subyektiv cəhətinin məcburi əlaməti kimi xüsusi məqsəd, aralıq məqsəd, ancaq cinayətin başa çatması üçün kifayət olan məqsəd kimi çıxış edir. Çünki təqsirkar aralıq nəticəyə nail olmaqla daha uzaq – son nəticəyə nail olmağa can atır. Məsələn, qanunsuz olaraq xaricə getməyə can atan (son məqsəd) təqsirkar hava gəmisinin komandirini xarici dövlətin ərazisinə enməyə məcbur etmək üçün hava gəmisində adamları girov götürür.

Qanunverici Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.1-ci maddəsini qurarkən "...vadar etmək məqsədilə..." ifadəsini işlədir. Cinayət Məcəlləsinin 215.1-ci maddəsini təhlil edərək adamları girov götürmənin aşağıdakı məqsədlərlə törədildiyini müəyyən etmək olar:

1) dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə (məsələn, nəqliyyat vasitəsi verməyə) vadar etmək məqsədi;

2) dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkətdən (məsələn, təqsirkarı izləməkdən) çəkinməyə vadar etmək;

3) dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və hər hansı hərəkətdən çəkinməyə (məsələn, əmək haqqı borcunu ödəmək və törədilən əmələ görə cinayət təqibini həyata keçirməmək) vadar etmək.

Beləliklə, adamları girov götürmə tərkibi yalnız o halda yaranır ki, onun subyektiv cəhəti Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş xüsusi məqsədlə səciyyələnmiş olsun.

Adamları girov götürmə ən müxtəlif motivlərlə törədilə bilər. Bunlara intiqam almaq, tamah, paxıllıq, cəzadan yaxa qurtarmaq cəhdi, siyasi sığınacaq almaq və s. misal ola bilər. Bu zaman nəzərə almaq lazımdır ki, adamları girov

götürmənin motivi, tamah motivi istisna olmaqla, tövsifə təsir göstərmir. Tamah motivi olduqda əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.2.8-ci maddəsi ilə tövsif edilir.

Yuxarıda şərh edilənlər onu göstərir ki, adamları girov götürmə birbaşa qəsdlə və xüsusi məqsədlə səciyyələnir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.2 və ya 215.3-cü maddəsi ilə tövsif edilən adamları girov götürmənin subyektiv cəhətini təhlil edərkən nəzərə almaq lazımdır ki, "onun məzmunu həm də təqsirkarın törədilmiş cinayətin tövsifedici əlamətinə psixi münasibəti ilə əhatə olunur" (7, 128).

Belə ki, məsələn, əməlin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.2.3-cü maddəsi ilə (adamları girov götürmənin həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədilməsi) tövsif edilməsi üçün təqsirkarın aşağıdakıları dərk etməsi zəruridir:

1) dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək məqsədilə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə şəxsi girov qismində götürdüyünü və ya saxladığını;

2) məhz göstərilən şəkildə və göstərilən məqsədlərlə hərəkət etdiyini.

Hesab edirik ki, Azərbaycan Respublikasının CM-in 215.3-cü maddəsində təsbit edilmiş adamları girov götürmənin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olmaqla törədilməsinin subyektiv cəhətinə xüsusi nəzər salmaq lazımdır. Bu halda cinayət təqsirin qarışıq formasında törədilir. Qeyd edilən halın qanunvericilik formuləsinin təhlili göstərir ki, CM-in 215.3-cü maddəsində təsbit edilmiş girov götürmənin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olmaqla törədilməsinin subyektiv cəhəti təqsirkarın şəxsi girov götürmə və ya saxlama hərəkətlərinə münasibətdə birbaşa qəsdlə və xüsusi məqsədlə, zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrin baş verməsinə münasibətdə isə ehtiyatsızlıqla səciyyələnir.

Azərbaycan Respublikasının CM-in 215.3-cü maddəsində nəzərdə tutulmuş nəticəyə münasibətdə ehtiyatsızlığın həm cinayətkarcasına özünəgüvənmə, həm də cinayətkarcasına ehtiyatsızlıq növləri mümkündür. Birinci halda, Azərbaycan Respublikasının CM-in 26.2-ci maddəsinə əsasən, şəxs adamları girov götürərkən və ya girov saxlayarkən zərərçəkənin ölümünün (və ya digər ağır nəticələrin) mümkünlüyünü qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdir. İkinci halda, Azərbaycan Respublikasının CM-in 26.3-cü maddəsinə əsasən, şəxs adamları girov götürərkən və ya girov saxlayarkən zərərçəkənin ölümünün (və ya digər ağır nəticələrin) mümkünlüyünü qabaqcadan görməmüş, lakin lazımi diqqət və ehtiyatlılıq göstərsəydi qabaqcadan görə bilməli idi və görə bilərdi.

Adamları girov götürmə zamanı şəxsin baş vermiş nəticələrə, məsələn, zərərçəkənin ölümünə psixi münasibəti qəsd şəklində ifadə edilərsə, onda cinayətlərin məcmusu – adamları girov götürmə və adam öldürmə mövcudur.

Beləliklə, adamları girov götürmənin subyektiv cəhəti ilə bağlı aşağıdakı nəticələri çıxara bilərik:

1) Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215.1-ci maddəsində nəzərdə tutulmuş adamları girov götürmə təqsirin birbaşa qəsd növü və xüsusi məqsədlə səciyyələnir;

2) Azərbaycan Respublikasının CM-in 215.3-cü maddəsində nəzərdə

tutulmuş adamları girov götürmənin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olması təqsirin qarışıq formasında törədilir: qəsd və ehtiyatsızlıq. Adamları girov götürmə və ya saxlama hərəkətlərinə münasibətdə birbaşa qəsd və xüsusi məqsəd, zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrin baş verməsinə münasibətdə isə ehtiyatsızlıq səciyyəvidir.

3) adamları girov götürmənin Azərbaycan Respublikasının CM-in 215.2.8-ci maddəsində nəzərdə tutulmuş tövsifedici halında tamah motivi subyektiv cəhətin məcburi əlaməti kimi çıxış edir;

4) Azərbaycan Respublikasının CM-in 215.2 və 215.3-cü maddələrində nəzərdə tutulmuş hallar təqsirkara məlum olduğu hallarda o, həmin tövsifedici əlamətlər üzrə təqsirləndirilir.

Adamları girov götürmənin subyekti ilə bağlı məsələni nəzərdən keçirək. Ən əvvəl qeyd edək ki, yuxarıda göstərdiyimiz kimi, cinayətin subyektinin olması cinayət məsuliyyəti üçün mühüm şərtdir, belə ki, "o, yalnız ilk növbədə cinayət törətmiş şəxs mövcud olduqda mümkündür" (5, 217).

Cinayət hüquq nəzəriyyəsində cinayətin subyekti olaraq ictimai təhlükəli əməli törədən və buna görə qanunauyğun cinayət məsuliyyəti daşımaq qabiliyyəti olan şəxs müəyyən edilir (4, 242). Adamları girov götürmə cinayətinin subyekti həmin əməli törətmiş və ona görə cinayət məsuliyyəti daşımaq qabiliyyəti olan şəxsdir. Qeyd olunan əməlin subyektini səciyyələndirən məcburi əlamətlər sistemi cinayət tərkibinin müvafiq elementini təşkil edir. Həmin əlamətlər aşağıdakılardır:

a) fiziki şəxs;

b) anlaqlı şəxs;

c) adamları girov götürməyə görə cinayət məsuliyyəti yaşına çatmış şəxs.

Adamları girov götürmənin subyekti ümumidir. Bu cinayətin subyekti yalnız fiziki şəxs ola bilər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 11-13-cü maddələrinə görə cinayət məsuliyyəti daşıya bilən fiziki şəxslərə Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında yaşayan vətəndaşlığı olmayan şəxslər, əcnəbilər aiddir. Onların hamısı adamları girov götürmə cinayətinin subyekti ola bilərlər.

Anlaqlılıq – cinayətin subyektinin ikinci zəruri hüquqi əlamətidir. Bu əlamətə malik olmayan şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz. Cinayət qanununda anlaqlılığın anlayışı müəyyən edilməmişdir, ancaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 21-ci maddəsində təsbit edilmiş anlaqsızlığın anlayışına əsasən anlaqlılığın anlayışı verilir.

Anlaqlılıq şəxsin sosial-psixoloji inkişaf səviyyəsinə, yaşına və psixi sağlamlığının vəziyyətinə görə öz əməllərinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək, cinayət törədərkən hərəkətlərini idarə etmək və bununla bağlı cinayət məsuliyyəti daşımaq iqtidarında olduğunu bildirən psixi vəziyyətdir (1, 362).

Qeyd edək ki, insanın davranışını müəyyən edən əsas psixi funksiyalar şüur və iradədir. Onlar obyektiv gerçəklik, maddi həyat şəraiti və şəxsiyyətin formalaşdığı ictimai mühitlə şərtlənir. Ancaq bu, şüur və iradənin fəal rolunu istisna etmir. O, subyektin törədilən əməli dərk etmək və öz hərəkətlərinə şüurlu surətdə rəhbərlik etmək qabiliyyətində ifadə olunur. Belə qabiliyyətə malik olan şəxs anlaqlıdır. Adamları girov götürmə cinayətinin subyektinin anlaqlılığı anlaqlılığın ümumi nəzəri müddəalarından heç nə ilə fərqlənmir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 21-ci maddəsinin məzmunu şəxsin anlaqsız hesab edilməsi

üçün iki meyarın olmasını tələb edir:
1) hüquqi meyar;
2) tibbi meyar.

Hüquqi meyar üçün iki əlamət – intellektual və iradi məqamlar xasdır. Anlaqsızlığın intellektual əlaməti şəxsin öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməməsini, iradi əlamət isə onu idarə edə bilmək qabiliyyətinin olmamasını nəzərdə tutur.

Anlaqsızlığın tibbi meyarı qeyd olunan qabiliyyətsizliyin səbəblərini aşkarlayır. Bu qisimdə qanunverici psixi xəstəliyin dörd alternativ növünü fərqləndirir:

a) xroniki psixi xəstəlik;
b) psixi fəaliyyətin müvəqqəti pozulması;
c) kəmağıllıq;
ç) sair psixi xəstəlik.

Hüquqi və tibbi meyarlar anlaqsızlığın anlayışında üzvi şəkildə mövcuddur və hər hansı şəxsin anlaqsız hesab edilməsi üçün hər iki meyarın olması məcburidir.

Beləliklə, ictimai təhlükəli əməli törədərkən şəxsin anlaqsızlığı onun Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti olması imkanını istisna edir. Bu zaman şəxs

- birincisi, dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək məqsədilə şəxsi girov qismində götürdüyünü və ya saxladığını dərk edə bilməz və ya öz hərəkətlərini idarə edə bilməz;

- ikincisi, həmin şəxs üçün xroniki psixi xəstəlik və ya psixi fəaliyyətin müvəqqəti pozulması, yaxud kəmağıllıq yaxud da sair psixi xəstəlik səciyyəvidir.

Anlaqsızlıqla bağlı V.P.Serbski yazır ki, "adam xəstə olduğuna görə deyil, xəstəliyi onu bu və ya digər hərəkət forması ilə bağlı azad mühakimə yürütməkdən və seçim etməkdən məhrum etdiyinə görə anlaqsız olur" (10, 42).

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən müəyyən yaş həddinə çatma ilə bağlı qanunvericinin göstərişi onu bildirir ki, cinayətin subyekti yalnız intellektual inkişafın göstərilən yaş həddində olan şəxs ola bilər. İntellektual inkişafın göstərilən yaş həddi şəxsə öz hərəkətlərinin xarakterini və ictimai təhlükəliliyini və baş verə biləcək zərərli nəticələri dərk etməyə, öz davranışını idarə etməyə, davranış seçimi etməyə imkan verir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 20-ci maddəsinə uyğun olaraq adamları girov götürməyə görə cinayət məsuliyyətinə on dörd yaşı tamam olmuş şəxslər cəlb edilir. Adamları girov götürmənin ictimai təhlükəliliyi yeniyetmə üçün aydındır. Belə ki, həmin cinayət törədilərkən təqsirkar özünün də malik olduğu rifahlara qəsd edir. Məhz buna əsasən belə fikir ifadə edə bilərik ki, adamları girov götürmə əməlini törətmiş on dörd yaşa çatmış şəxs özünün törətdiyi hərəkətlərin ictimai təhlükəliliyini həm dərk edir, həm də onları idarə edə bilir. Ancaq konkret şəxsin cinayət məsuliyyəti haqqında məsələ həm cinayətin subyektini, həm də təqsirkarın şəxsiyyətini səciyyələndirən bütün hallar nəzərə alınmadan həll edilə bilməz. Adamlara fərdi yanaşma, onların həyat şəraitini, şəxsi keyfiyyətlərini diqqətlə öyrənmək tələbi vacibdir. Adamları girov götürmə kimi ağır cinayətin törədilməsi həmin əməlin və təqsirkarın şəxsiyyətinin ictimai təhlükəliliyini kifayət qədər aydın göstərir. Ancaq bu, cinayətkarın şəxsiyyətini müfəssəl tədqiq etməyin zəruriliyini istisna etmir. Adamları girov götür-

mənin subyektinin şəxsiyyətinin hərtərəfli öyrənilməsi təqsirkara ədalətli cəzanın təyin edilməsi üçün zəruridir, cinayətin törədilməsinə imkan yaratmış səbəblərin və şəraitin aşkar edilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Qeyd edək ki, Azərbaycan Respublikasının 1960-cı il Cinayət Məcəlləsinin 10-cu maddəsinə uyğun olaraq cinayət törədənədək on altı yaşı tamam olmuş şəxslər adamları girov götürməyə görə cinayət məsuliyyətinə cəlb edilirdilər. Qeyd edilən cinayəti törətməyə görə cinayət məsuliyyətinə çatma yaşının minimal həddinin azaldılmasına aşağıdakı amillər təsir göstərmişdir:

1) adamları girov götürmənin ictimai təhlükəliliyinin və bu zaman edilən hərəkətlərin faktiki xarakterinin on dörd yaşı tamam olmuş şəxs üçün aydın və başadüşülən olması;

2) baxılan cinayətin törədilməsinin yalnız birbaşa qəsdlə mümkünlüyü;

3) adamları girov götürmənin yüksək ictimai təhlükəliliyə malik olması.

Burada birinci amil həlledici əhəmiyyətə malikdir, qalan hallar isə onun üçün əsas rolunu oynayır.

Yetkinlik yaşına çatmayanın adamları girov götürmə cinayətinin, eləcə də digər cinayətlərin subyekti hesab edilməsi barədə məsələni həll edərkən onun doğum ilini, ayını və gününü dəqiq müəyyənləşdirmək lazımdır. Adətən yaş şəxsin doğum haqqında şəhadətnaməsi, vətəndaşın şəxsiyyət vəsiqəsi və ya pasportu ilə müəyyən edilir. On dörd yaşın tamam olması üçün bir gün, hətta bir saat belə çatmazsa, şəxs cinayətin subyekti ola bilməz. Məsələnin bu qaydada həlli öncə qanunçuluğun, hamının qanun qarşısında bərabərliyinin təmin edilməsi zərurəti ilə bağlıdır. Şəxs müəyyən yaş həddinə anadan olduğu gündən sonrakı sutkanın sıfır saatında çatmış hesab edilir. Şəxsin yaşını göstərən sənəd olmadıqda onun yaşı məhkəmə-tibb ekspertizası aparmaq yolu ilə müəyyən edilir. Bu zaman doğum günü ekspertlərin müəyyən etdiyi doğum ilinin son günü hesab edilir, minimal və maksimal yaş müəyyən edildikdə isə ekspertizanın ehtimal etdiyi minimal yaş əsas götürülür (8, 146-155).

Cinayətin subyekti qismində təkcə başa çatmış cinayəti törətmiş şəxs deyil, həm də cinayətə hazırlığa və cinayətə cəhdə (başa çatmayan cinayətə) görə cəzalanmalı olan təqsirkar şəxslər də çıxış edə bilər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 28.2-ci maddəsinə uyğun olaraq yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq hərəkətləri cinayət məsuliyyətinə səbəb olur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15.4, 15.5-ci maddələrinin və 215.1, 215.2, 215.3-cü maddələrinin sanksiyalarını təhlil edərək belə nəticə çıxara bilərik ki, Cinayət Məcəlləsinin 215.1, 215.2-ci maddələri üzrə tövsif edilən cinayətlər ağır cinayətlər kateqoriyasına, 215.3-cü maddəsi üzrə tövsif edilən cinayətlər xüsusilə ağır cinayətlər kateqoriyasına aiddir. Buna görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 215-ci maddəsində nəzərdə tutulmuş cinayətlərə həm hazırlığa, həm də onları törətməyə cəhdə görə təqsirli olan şəxs adamları girov götürmənin subyekti kimi çıxış edəcəkdir. Belə ki, zərərçəkənin fəal hərəkətləri üzündən girov götürməyə nail ola bilməyən şəxs (cinayətə cəhd) və ya girov götürmə cinayətini törətmək üçün hər hansı qurğu yaxud vasitə hazırlayan şəxs (cinayətə hazırlıq) qeyd olunan cinayətin subyekti olacaqdır. Cinayətin subyekti qismində təkcə onun icraçısı deyil, həm də digər iştirakçıları çıxış edə bilər. Buna görə qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən adamları girov götürmə cinayəti törədilərkən baxılan cinayətin bir neçə subyekti olur.

Beləliklə, adamları girov götürmə cinayətinin subyekti yalnız cinayət törədərkən on dörd yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər.


**ƏDƏBİYYAT**

1. Ağayev İ. Cinayət tərkibi: Dərs vəsaiti. Bakı: Təhsil, 2005, 496 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2007, 960 s.
3. Kərimli A.Q. Qəsdən adam öldürmə cinayətlərinin tövsifində motivin yeri və rolu. Hüquq elmləri namizədi alimlik adı almaq üçün dissertasiya. Bakı: Digesta, 2007, 181 s.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı: Digesta, 2009, 700 s.
5. Брайнин Я.М. Уголовная ответственность и ее основание в советском уголовном праве. М.: Юридическая литература, 1963, 275 с.
6. Злобин Г.А., Никифоров Б.С. Умысел и его формы. М.: Юридическая литература, 1972, 216 с.
7. Куринов Б.А. Научные основы квалификации преступлений. М.: МГУ, 1984, 194 с.
8. Постановление Пленума Верховного Суда СССР № 16 от 3 декабря 1976 г. "О практике применения судами законодательства по делам о преступлениях несовершеннолетних и о вовлечении их в преступную и иную антиобщественную деятельность" (с изменениями, внесенными постановлениями Пленума № 6 от 9 июля 1982 г., № 7 от 26 апреля 1984 г., № 15 от 1 ноября 1985 г., № 10 от 18 апреля 1986 г. и № 17 от 5 декабря 1986 г.) / Сборник постановлений Пленумов Верховных Судов СССР и РСФСР (Российской Федерации) по уголовным делам. М.: Спарк, 1996, 600 с.
9. Российское уголовное право. Общая часть: Учебник. М.: Спарк, 1997, 672 с.
10. Сербский В.П. Судебная психиатрия. Вып. 1. М.: 1895, 298 с.
11. Филановский И.Г. Субъективная сторона преступления и ее установление. Воронеж: ВГУ, 1974, 220 с.


## О СУБЪЕКТИВНЫХ ПРИЗНАКАХ ЗАХВАТА ЗАЛОЖНИКА


**П.Р.ГУСЕЙНОВ**



**РЕЗЮМЕ**

В статье исследуются субъективные признаки захвата заложника. Показывается, что захват заложника в субъективном смысле характеризуется прямым видом умысла и с особой целью. Если деяния приводят к смерти или к другим тяжким последствиям, то в этом случае можно говорить о существовании смешанной формы вины: умысел и неосторожность. В отношении деяния к захвату в залог или удержание людей характерен прямой умысел и особая цель. В отношении деяния, приводивших к смерти потерпевшего или других тяжких последствий, характерна неосторожность. Субъектом захват заложника может быть только вменяемое физическое лицо, достигшее 14 летнего возраста.

В статье ведется обобщение исследуемых вопросов, делаются соответствующие выводы.

## ABOUT THE SUBJECTIVE POINTS OF TAKING PEOPLE AS HOSTAGES

**P.R.HUSEYNOV**

**SUMMARY**

The subjective points of taking people as hostages are investigated in the article. It is shown that taking people as hostages is directly characterized by creminal intent. If it results in the death of the prejudiced man by imprudence or other severe reasons, the mixed form of guilt exists: criminal inrent and imprudence. The subject of crime of taking people as hostages can be a quick-witted man over the age of 14.

In the end, the author summarizes the investigated matter and comes into certain conclusions.